Azərbaycanın haqq savaşı xarici mətbuatda

“Son bombardmanlar nəticəsində Azərbaycan mədəni irsinin məhv edilməsi ölkə vətəndaşlarını şoka salıb. UNESKO-nun mədəni irs siyahısına salınmış mədəni irs nümunələri böyük təhlükə altındadır. Tarixçilər və arxeoloqlar 1954-cü ildə Silahlı Münaqişə zamanı mədəni sərvətlərin qorunması haqqında Haaqa Konvensiyasını, 1972-ci il UNESKO-nun Dünya Mədəni və Təbii İrsinin Qorunması Konvensiyasını bir daha xatırladırlar. Ziyalılar qədim tarix və mədəniyyət mərkəzi olan Gəncə şəhərinin raket hücumuna məruz qalmasından qəzəblənir və Füzuli bölgəsindəki döyüşlər zamanı Şeyx Babi Yağrubun məqbərəsinə böyük ziyan vurulduğunu xüsusi vurğulayırlar”.

AZƏRTAC xəbər verir ki, bu fikirlər Fransanın “Agoravox” portalında dərc olunmuş “Son xəbərlər “Azərbaycan-Ermənistan münaqişəsi”: əgər obyektiv yanaşmağa çalışsaydıq?” adlı məqalədə yer alıb.

“Oxucu mühakimə yürütməzdən əvvəl birtərəfli qaydada deyil, tam məlumatlandırılsaydı nə olardı?” deyən müəllif Fransa mətbuatının tamamilə Ermənistan tərəfinin məlumatlarına həsr edildiyini bildirir, Azərbaycanın səsinə fransız mediasında yer verilmədiyini vurğulayır. Həmçinin jurnalistləri və tarixçiləri mühakimə yürütməzdən əvvəl obyektiv olaraq hər iki tərəfin mənbələrinə istinad etməyə, reallığı yaxından tanımağa çağırır.

Jurnalist Azərbaycan tərəfinin təhlillərini öyrənmək üçün onlarla əlaqə saxlamağın maraqlı olacağını bildirib.

Məqalədə sentyabrın 27-də başlayan müharibə haqqında məlumat verilib, Ermənistanın ölkəmizin Dağlıq Qarabağ bölgəsindən 200 kilometrdən çox uzaqda yerləşən Gəncə, Mingəçevir, Xızı şəhərlərini, mülki əhalini və strateji infrastrukturu hədəfə alaraq kaset bombalarla hücum etdiyi vurğulanıb.

Qeyd edilib ki, Azərbaycan öz torpaqlarının azadlığı uğrunda mübarizə aparır. BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinə baxmayaraq, Ermənistan 30 ildir Azərbaycan ərazisinin 20 faizini işğal altında saxlayır. Bəzi medialarda səsləndirilən “xristian Ermənistanı və müsəlman Azərbaycanı arasında döyüşlər” ideyasının ölkəmiz tərəfindən rədd edildiyi vurğulanıb. Azərbaycanın multikultural ölkə olduğu, müxtəlif xalqların, dinlərin nümayəndələrinin birgə mehriban yaşadığı diqqətə çatdırılıb.

Həmçinin vurğulanıb ki, COVID-19 böhranı dövründə Nikol Paşinyanın ölkəni iqtisadi və sosial baxımdan acınacaqlı vəziyyətə salması bugünkü müharibənin alovlanmasına səbəb olub.

Məqalədə Türkiyə və onun ölkəmizə dəstəyinə də toxunularaq, onun münaqişədə iştirakının tamamilə səhv olduğu qeyd edilib.

Sonda Ermənistanın Orta Şərq ölkələrindən erməni mənşəli sakinlərin - 150 livanlı ailənin Azərbaycanın işğal olunmuş torpaqlarında məskunlaşdırıldığı, eləcə də Ermənistanın İraqdakı səfirinin PKK ilə danışıqlar apararaq bu ölkədən 1500-2000 döyüşçünün Ermənistana göndərildiyi vurğulanıb.

❖ ❖ ❖

Misir və Sudan mətbuatı Azərbaycan xalqının Vətən müharibəsi haqqında materiallar yerləşdirməyə davam edir.

Misir və Sudan KİV-ində AZƏRTAC-a istinadla Azərbaycan xalqının Vətən müharibəsi haqqında materiallar yerləşdirilməkdə davam edir.

Sudanın “Bajnews” portalı Azərbaycan Prezidenti İlham Əliyevin xalqa müraciətindən sitatlar yayıb. Qeyd edilib ki, dövlətimizin başçısı atəşkəsin yalnız işğalçı Ermənistanın öz qoşunlarını Azərbaycan torpaqlarından çıxarmasından sonra mümkün olacağını vurğulayıb.

Nüfuzlu “Gomhuriaonline” saytında Azərbaycan Dövlət Təhlükəsizlik Xidmətinin Ermənistanın hərbi əməliyyatlarda İraqdan və Suriyadan muzdlu döyüşçülər gətirməsi ilə bağlı yaydığı səs yazıları barədə xəbər yerləşdirilib.

“Aldiplomasy” internet nəşri isə oktyabrın 6-da Ermənistan ərazisindən Gəncə şəhərinə atılan raket nəticəsində başından yaralanan azyaşlı uşaq haqqında məlumatı yayıb.

“Egyptonline” portalının yaydığı xəbərdə Ermənistanın hərbi-siyasi rəhbərliyinin göstərişi ilə işğalçı ölkənin silahlı qüvvələrinin regionun ən böyük strateji layihəsi, Avropanın enerji təhlükəsizliyi üçün böyük əhəmiyyətə malik olan Bakı-Tbilisi-Ceyhan neft kəmərini hədəfə almaqla kəmərin Yevlax rayon ərazisindən keçən hissəsinə raket zərbələri endirməsi, Ordumuzun qətiyyətli tədbirləri nəticəsində həmin terror cəhdinin qarşısının alındığı barədə məlumat verilib.

❖ ❖ ❖



Azərbaycan Ordusunun qazandığı hərbi nailiyyətlər Ermənistandakı acınacaqlı vəziyyəti daha da gərginləşdirib. Ermənistan hökumətinin yanlış informasiyalarla cəmiyyəti aldatmaq cəhdləri isə ölkənin siyasi rəhbərliyinin öz maraqları naminə erməni xalqını qurban verməsi kimi başa düşülür. Paşinyanın səsləndirdiyi son fikirlər göstərir ki, o, hələ də xəyalpərəst ideyalarından əl çəkmir. Lakin o, unudur ki, artıq hər hansı informasiyanı gizlətmək, onu yanlış formada təqdim etmək müasir dünyamızda demək olar mümkünsüzdür.

Küçələrdə pafoslu çıxışlar etməklə Paşinyan elə düşünürdü ki, siyasət meydanında da bu cür fikirlərlə uğur qazanacaq. Amma görünən odur ki, hələ də həqiqəti anlamır və özünün qeyri-ciddi obrazını qoruyub saxlamaqda iddialıdır. Bu, onun BBC-nin müxbiri Conah Fişerə son müsahibəsində bir daha özünü göstərdi.

Erməni dilində danışmaq da Paşinyanın köməyinə çatmadı

Bir müddət əvvəl BBC-nin “HARDTalk” proqramında zəif ingiliscəsi ilə özünü biabır edən Paşinyan bu dəfə vəziyyətdən çıxış yolunu erməni dilində danışmaqda gördü. Lakin dəyişən yalnız elə bu oldu. Bütün müsahibə müddətində o, yenə nə dərəcədə sərsəm olduğunu ortaya qoydu.

AZƏRTAC müsahibədən bəzi məqamları təqdim edir.

Müsahibənin əvvəlində N.Paşinyanın “Bəli, “Artsax” Ermənistandır və erməni torpağıdır. Orada hər zaman əhalinin 80 faizi erməni olub” deməsi onun əsl mahiyyətini bir daha göstərdi. Paşinyan anlamır ki, bu gün Azərbaycan Ordusu tarixi ədaləti bərpa etmək üçün mübarizə aparır. Azərbaycanın xalq-prezident birliyinə əsaslanan mövqeyinin də ciddi tarixi kökləri var. Biz ermənilər kimi, saxta, heç bir tarixi fakta istinad etməyən iddialar irəli sürmürük. Qarabağın tarixi toponimləri, mövcud abidələri, məbədləri göstərir ki, bu ərazi qədim Azərbaycan torpağıdır. Azərbaycan xalqı tarixi ədalətin bərqərar olması üçün mübarizə aparır. Bu, həqiqətdir və bunu Ermənistan rəhbərliyindən başqa hər kəs qəbul edir.

Danışıqlar prosesini pozan Paşinyan beynəlxalq hüququ tapdamaqda davam edir.

Conah Fişer “Sizin bu cür danışığınızdan belə görünür ki, siz razılığa yer qoymamısınız” deyə Paşinyana müraciət edərək, əslində beynəlxalq ictimaiyyətin məsələ ilə bağlı mövqeyini bir daha onun diqqətinə çatdırmış oldu. Müsahibənin əvvəlində “Bəli, “Artsax” Ermənistandır və erməni torpağıdır” deyən Paşinyan bir neçə dəqiqə sonra guya danışıqlara hazır olduqlarını bildirir. Bu cür fikirləri bir ölkəni idarə edən şəxsin səsləndirməsi yalnız gülünc doğurur. Sanki Paşinyan ucqar bir kəndə oturub və hadisələrin gedişindən tam xəbərsizdir. Başa düşmür ki, indi baş verənlər, erməni hərbçilərinin, texnikasının məhv edilməsi məhz onun bu cür təxribatçı, sərsəm bəyanatlarının nəticəsidir. Əgər o, danışıqlar prosesinə, beynəlxalq hüququn normalarına sadiqlik nümayiş etdirsəydi, ordusunu torpaqlarımızdan geri çəksəydi, həm özünü, həm də xalqını bu böhrandan çıxarmış olardı.

Müxbirin “Beynəlxalq hüquqa görə, 20 ildən çoxdur ki, Ermənistan Dağlıq-Qarabağ və ətraf əraziləri qeyri-qanuni şəkildə işğal etmişdir” sualı qarşısında aciz qalan Paşinyan sualın mahiyyətindən yayınmağa cəhd göstərdi. Conah Fişerin növbəti sualını isə Paşinyanın və Ermənistanın ifşası kimi qiymətləndirmək olar. “Siz demək istəyirsiniz ki, sizin tarixi iddianız var. Lakin beynəlxalq hüquq qarşısında siz səhvsiniz”. Belə görünür ki, Paşinyan BMT Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələrinin heç birinin mətni ilə tanış deyil. Bunu onun müxbirin sualına cavabına əsasən demək olur. Birincisi, Paşinyan cavabında “BMT Baş Assambleyasının qətnamələri” deyir, halbuki söhbət BMT Təhlükəsizlik Şurasının Dağlıq Qarabağ münaqişəsi ilə bağlı qəbul etdiyi qətnamələrdən gedir. Bir ölkənin hökumət başçısının, ağlı başında olan siyasətçinin belə bir səhv etməyə haqqı yoxdur. Digər tərəfdən, Paşinyan deyir ki, o qətnamələrdə Ermənistanın haranısa işğal etdiyi yazılmır. Qətnamələrin hər birində erməni qoşunlarının işğal etdiyi Azərbaycan torpaqlarından geri çəkilməsi tələb olunur. Bu ifadə qətnamələrin hər birində açıq şəkildə ifadə edilib. Azərbaycanın beynəlxalq hüquqa əsaslanan mövqeyi də məhz bu qətnamələrin yerinə yetirilməsinə hesablanıb. Paşinyanın heç bir sənəddə təsbit edilməyən mövqeyi isə tam əsassızdır və bu, beynəlxalq hüququn tapdanmasıdır.

Təəssüf ki, ötən müddət ərzində beynəlxalq ictimaiyyət də bu məsələlərə biganə qaldı. Lakin Azərbaycan xalqı, Prezidenti bu məsələyə biganə qala bilməz. Əgər beynəlxalq ictimaiyyət ermənilərə təzyiq göstərib, qoşunlarını bizim ərazilərdən çıxara bilmədisə, Azərbaycan əsgəri bunu etməli idi, necə ki, indi edir. Ermənistanın tutduğu mövqe isə onu uçuruma aparır, cəbhədəki uğurlarımız bu prosesi daha da sürətləndirir.

❖ ❖ ❖

Azərbaycan-Monteneqro Mədəni-İqtisadi Mərkəzinin direktoru Seyran Mirzəzadə Monteneqronun media nümayəndələri üçün mətbuat konfransı keçirib.

AZƏRTAC xəbər verir ki, Seyran Mirzəzadə mətbuat konfransında Ermənistan silahlı qüvvələrinin Azərbaycanın mülki şəxslərinə qarşı növbəti təcavüzünə cavab olaraq, Azərbaycan Ordusu əks-hücum əməliyyatları həyata keçirdiyini bildirib.

Qeyd edib ki, əks-hücum əməliyyatları Azərbaycanın beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində Ermənistan tərəfindən illərdir işğal altında saxlanılan ərazilərdə aparılır. Diqqətə çatdırılıb ki, Azərbaycan öz tarixi, əzəli torpaqlarını işğaldan azad etmək hüququndan istifadə edir. Ermənistan isə beynəlxalq hüquqa məhəl qoymur, BMT Təhlükəsizlik Şurasının 822, 853, 874, 884 saylı qətnamələrinin tələblərinə riayət etmir. Beynəlxalq ictimaiyyət isə bu haqsızlıqlara illərdir göz yumur və ikili standartlardan çıxış edir.

Ermənistan hakimiyyətinin beynəlxalq ictimaiyyətin fəaliyyətsizliyindən daha da ruhlanaraq yeni ərazi iddiaları ilə çıxış etməsinin, işğal olunmuş ərazilərdə möhkəmlənmə cəhdlərinin, mülki əhalini mütəmadi olaraq atəş altında saxlamasının qəbuledilməz olduğunu bildirən S.Mirzəzadə deyib: “Ermənistan Baş nazirinin “Qarabağ Ermənistandır” bəyanatı və aqressiv ritorikası ona və erməni xalqına baha başa gələcək. Azərbaycan xalqı səmərəsiz danışıqlardan yorulub və tarixi haqsızlığı aradan qaldırmaq məqsədilə torpaqlarının müdafiəsinə qalxıb, bir yumruq kimi Prezidentinin ətrafında birləşib. Döyüş meydanında böyük itkilərlə üzləşən Ermənistan silahlı qüvvələri mülki əhalini, mülki obyektləri açıq və məqsədyönlü şəkildə hədəfə almaqla beynəlxalq hüquq normalarını və insan hüquqlarını kobud şəkildə pozur. Dağlıq Qarabağ inzibati, tarixi və rəsmi olaraq Azərbaycan ərazisidir və Ermənistan bütün qoşunlarını Azərbaycandan çıxarmalıdır, yalnız bundan sonra danışıqlar aparıla bilər. Münaqişənin və müharibənin kökündə Ermənistanın “böyük Ermənistan” xəstə təxəyyülü və ideyası durur”.

Natiq qeyd edib ki, Ermənistanın Azərbaycana qarşı təcavüzü Dağlıq Qarabağ Muxtar Vilayətinə qarşı əsassız ərazi iddialarına görə başlamışdır. Ermənistan Dağlıq Qarabağdan başqa ətraf yeddi rayonu da işğal etmişdir. İşğal etdiyi ərazilərdən öz xoşu ilə çıxmaq niyyəti yoxdur. Hazırkı hərbi əməliyyatlara görə məsuliyyət Ermənistanın baş naziri Paşinyanın və Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür. Azərbaycan Prezidenti BMT Baş Assambleyasının 75-ci sessiyası çərçivəsində çıxışı zamanı Ermənistanın ölkəmizə qarşı yeni hərbi təcavüz hazırladığı barədə beynəlxalq ictimaiyyəti xəbərdar etdi. Amma buna məhəl qoyulmadı. Azərbaycan xalqının heç bir ölkənin ərazisində gözü yoxdur, biz Vətənimizi, ölkəmizi və dövlətimizi müdafiə edirik. Ermənistanın bu münaqişəni dinlərarası və ya millətlərarası münaqişə kimi göstərmək cəhdləri, Türkiyənin hərbi əməliyyatlarda iştirakı, Azərbaycanın müxtəlif ölkələrdən terrorçular gətirməsi kimi iddialar tam əsassız və məntiqsizdir. Heç biri ilə bağlı sübutlar yoxdur və ola da bilməz!

❖ ❖ ❖

İspaniyanın qocaman nəşrlərindən biri olan “Lavanguardia” qəzetində “Müharibə Azərbaycanın cəbhə xəttindən kənarda yaşayan dinc sakinlərinə zərbə vurur” sərlövhəli məqalə dərc edilib.

AZƏRTAC xəbər verir ki, məqalədə Azərbaycanın cəbhəyanı rayonlarında yaşayan, erməni silahlı qüvvələrinin atəşi altında olan sakinlərin başına gələn hadisələrdən bəhs edilir.

Məqalədə qeyd olunur ki, Dağlıq Qarabağda müharibə öz coğrafi hüdudlarından kənara çıxıb, bu müharibə Azərbaycanın yaşından və sosial statusundan asılı olmayaraq mülki əhalisinə amansız zərbələr vurub.

İspan nəşri yazır: “Cəbhəyanı Tərtər rayonunun sakini Elşad Hüseynovun sözlərinə görə, o, müharibə səslərinə yaxşı bələddir. O deyir: “Ermənilər bizə - dinc sakinlərə tanklardan və ağır artilleriyadan atəş açırdılar. Bu, susmaq bilməyən güclü top atəşi idi. Bizim şəhərə onlarca, bəlkə də yüzlərlə mərmi düşüb”.

Hərbi əməliyyatlar dövründə dinc sakinlərin həyatındakı hadisələrə dair verilən “Bərdə də erməni atəşi altında olan şəhərdir” adlı bir parçada isə Bərdə rayonunun sakinləri danışırlar ki, ermənilər münaqişə zonasından uzaqda yerləşən şəhərləri atəşə tuturlar. Bu, Azərbaycan Ordusunun irəli getməsinə görə ermənilərin qisasıdır.

Məqalədə qeyd olunur ki, cəbhəyanı rayonların sakinləri müharibənin bütün çətinliklərinə dözməyə hazırdırlar, təki ədalət zəfər çalsın. “Biz başa düşdük ki, danışıqlar faydasızdır. Müharibə qaçılmazdır və ədalət bərpa edilməlidir. Müharibə özü ilə çətinliklər gətirir, lakin biz bu çətinliklərə dözməyə hazırıq. Cəbrayıl şəhəri azad edilib. Biz inanırıq ki, nəhayət, qaçqınlar öz evlərinə qayıdacaqlar”.

“Lavanguardia” nəşrinin yazdığına görə, Azərbaycan Prezidenti İlham Əliyev xəbərdarlıq edib ki, Bakı erməni silahlı qüvvələrinin işğal edilmiş Azərbaycan rayonlarından çıxarılmasının möhkəm beynəlxalq zəmanətlərlə əsaslandırılmış qrafikini alanadək hərbi əməliyyatlar davam edəcək.

https://www.lavanguardia.com/internacional/20201006/483895096742/la-guerra-golpea-en-azerbaiyan-a-los-civiles-mas-alla-del-frente.html

❖ ❖ ❖

Yaponiyanın “Sərhədləri aşanlar 3.0” “YouTube” kanalında Ermənistan ordusunun Azərbaycana qarşı son təxribatları barədə növbəti veriliş yayımlanıb.

AZƏRTAC xəbər verir ki, verilişin aparıcıları Kazuyasu İşida və Yasuhiro İşibaşi artıq 10 gündür davam edən və bütün dünya mətbuatının diqqətini özünə çəkən Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi barədə danışıblar. Beynəlxalq səviyyədə Azərbaycanın ərazisi kimi tanınan Dağlıq Qarabağ bölgəsinin illərdir Ermənistan ordusu tərəfindən işğal altında saxlanıldığı vurğulanıb. Azərbaycan Ordusunun apardığı uğurlu əməliyyatlardan çıxılmaz vəziyyətə düşən Ermənistanın Azərbaycanın bir sıra şəhər və kəndlərini raket və ağır artilleriya qurğularından atəşə tutduğu, Azərbaycanın mülki əhalisi arasında itkilərin artdığı qeyd edilib.

Ermənistan silahlı qüvvələrinin cəbhə xəttinə yaxın yerləşən Tərtər, Goranboy, Beyləqan şəhərləri ilə yanaşı, sənaye şəhəri olan Mingəçeviri, Xızı və Abşeron rayonlarını da raket hücumuna tutduğu bildirilib. Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyevin “Twitter” hesabında bu məsələ ilə bağlı paylaşmasına istinad edilib. Bundan bir gün əvvəl isə Azərbaycanın ikinci böyük şəhəri Gəncənin də Ermənistan silahlı qüvvələrinin eyni hücumuna məruz qaldığı, məktəb, xəstəxana binaları ilə yanaşı, çox sayda evin dağıdıldığı, dinc əhalinin zərər çəkdiyi bildirilib.

Verilişdə BMT Təhlükəsizlik Şurasının Ermənistan silahlı qüvvələrinin Azərbaycanın Dağlıq Qarabağ və ona bitişik ərazilərdən dərhal çıxarmasına dair 4 qətnaməsi barədə də məlumat verilib. Xüsusən qurumun 822 nömrəli qətnaməsini xatırladan aparıcılar 20 ildən çox müddət ərzində Ermənistanın bu sənədlərdən irəli gələn qərarları yerinə yetirmədiyini xüsusi vurğulayıblar. Hazırda bölgədə baş verən müharibənin başlıca səbəbkarının ermənilər olduğu qeyd edilib. Ermənistanın baş naziri N.Paşinyanın erməni xalqının diqqətini ölkəsinin iqtisadi və sosial problemlərdən yayındırmaq üçün müharibəyə çıxış yolu kimi baxdığı bildirilib.

Aparıcılar qarşıdurmanın dayandırılması üçün Azərbaycan Prezidenti İlham Əliyevin irəli sürdüyü şərti də tamaşaçıların diqqətinə çatdırıblar: “Tək bir şərtimiz var. Erməni silahlı qüvvələri qeyd-şərtsiz Azərbaycan torpaqlarını tamamilə və dərhal tərk etməlidirlər”.

❖ ❖ ❖

İspaniyanın böyük oxucu kütləsinə malik “La Vanguardia” qəzeti Azərbaycan Prezidenti İlham Əliyevin oktyabrın 6-da Türkiyə Respublikasının Xarici İşlər naziri Mövlud Çavuşoğlunu qəbul etməsindən yazıb.

AZƏRTAC xəbər verir ki, məqalədə dövlət başçısı İlham Əliyevdən sitat gətirilərək, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın qətiyyətli bəyanatlarının bir daha Türkiyənin Azərbaycanın yanında olduğunu göstərməsinin bariz təzahürü olduğu, Türkiyə-Azərbaycan qardaşlığının regionda sabitliyin, əmin-amanlığın təmin edilməsi üçün önəmli rol oynadığı diqqətə çatdırılıb.

Qeyd olunub ki, Mövlud Çavuşoğlu Azərbaycana səfərlərinin məqsədinin Türkiyənin qardaş Azərbaycana dəstəyini bir daha bütün dünyaya göstərmək olduğunu bildirib. Qeyd edib ki, Prezident İlham Əliyevin liderliyi ilə bu gün Azərbaycan öz torpaqlarını azad etmək üçün mübarizə aparır və buna qadirdir. Türkiyə və türk xalqı bütün sahələrdə Azərbaycana hər cür dəstək verməyə hazırdır.

❖ ❖ ❖

Ukraynanın nüfuzlu KİV Ermənistanın hərbi təxribatları, Azərbaycan Ordusunun uğurlu əks-həmləsi barədə məlumatlar yaymaqda davam edir.

AZƏRTAC xəbər verir ki, “RBK-Ukrayna”, UNİAN, “İnterfaks-Ukrayna”, “Ukrinform” informasiya agentliklərində, “Seqodnya”, “QORDON” nəşrlərində dərc edilən məqalələrdə, “TSN”, “Ukraina-24”, “1+1”, “Pryamoy” telekanallarında yayımlanan reportajlarda Ermənistanın münaqişənin həllində güzəştə hazır olması, Azərbaycanın yaşayış məntəqələrinin atəşə məruz qalması, Bakı-Tbilisi-Ceyhan neft boru kəmərinə raket hücumu barədə məlumatlar yer alıb.

Bundan başqa, Prezident İlham Əliyevin Rusiyanın “Pervıy kanal” televiziyasına müsahibəsində söylədiyi fikirlər də Ukrayna mediasının diqqət mərkəzində olub.

❖ ❖ ❖

Misirin “Sotbaladna” (“Ölkəmizin səsi”) qəzeti Azərbaycan diasporunun sədri, tədqiqatçı-alim Seymur Nəsirovun işğalçı Ermənistanın Qarabağda məscidləri donuz fermasına çevirməsindən bəhs edən müsahibəsini yayıb.

AZƏRTAC xəbər verir ki, müvafiq fotoşəkillərin də əlavə olunduğu müsahibədə artıq 30 ilə yaxındır Dağlıq Qarabağı və ona bitişik 7 rayonu işğal altında saxlayan Ermənistanın tarixi-mədəni abidələri məhv, müqəddəs məscidlərimizi təhqir etdiyi qeyd olunub. Bununla bağlı İslam Əməkdaşlıq Təşkilatına, müsəlman ölkələrinə mütəmadi olaraq məlumatlar çatdırılıb, KİV-də ermənilərin bu çirkin əməlləri barədə çoxsaylı materiallar dərc edilib.

Müsahibədə qeyd olunub ki, Prezident İlham Əliyev xalqa müraciətində Azərbaycan xalqının əsrlər boyu öz torpaqlarında yaratdığı, qurub tikdiyi tarixi, dini, mədəni abidələrin 30 ilə yaxındır ki, erməni cəlladları tərəfindən dağıdıldığını, ərazilərimizi işğaldan azad etdikdən sonra məscidlərimizi bərpa edəcəyimizi söyləyib.

❖ ❖ ❖

Azərbaycanın Koreya Respublikasındakı səfirliyində yerli jurnalistlər üçün mətbuat konfransı keçirilib.

Səfirlikdən AZƏRTAC-a bildiriblər ki, mətbuat konfransında səfir Rəmzi Teymurov Ermənistanın Azərbaycana qarşı son hərbi təcavüzü, hazırda cəbhə bölgəsində yaranmış vəziyyət haqqında məlumat verib. Münaqişənin tarixindən danışan səfir bildirib ki, bəzi Qərb, o cümlədən bir neçə Cənubi Koreya KİV-də Dağlıq Qarabağın “mübahisəli bölgə” kimi təqdim edilməsi təəssüf doğurur. Çünki beynəlxalq sənədlər Azərbaycan ərazilərinin, o cümlədən Dağlıq Qarabağın Ermənistan tərəfindən işğalı faktını təsdiq edir və bunu birmənalı şəkildə pisləyir. “Bu səbəbdən BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə və beynəlxalq hüquqa əsasən Azərbaycanın Dağlıq Qarabağ bölgəsi məhz işğal olunmuş ərazi kimi təsbit edilməlidir”, - deyə səfir qeyd edib.

Diplomat bildirib ki, son 30 il ərzində Ermənistanın işğal etdiyi torpaqlardan çəkilməməsi, əksinə, Azərbaycana qarşı yeni hərbi təxribatlar törətməsinin səbəbi beynəlxalq ictimaiyyətin, o cümlədən bəzi ölkələrin neytral mövqe tutması və işğalçı tərəflə işğala məruz qalan tərəfə fərq qoymamasıdır. “Biz Koreya ictimaiyyəti və dövlətindən Azərbaycanı dəstəkləməyi, yaxud bizim ölkənin tərəfinin tutulmasını deyil, beynəlxalq hüququn norma və prinsiplərinə hörmət göstərilməsini gözəyirik”, - deyə R.Teymurov bildirib.

❖ ❖ ❖

Geosiyasət, beynəlxalq münasibətlər və təhlükəsizlik sahəsində İspaniyanın tanınmış araşdırma institutlarından sayılan “Quijote Globe” beyin mərkəzinin internet səhifəsində Azərbaycan Respublikasının İspaniya Krallığındakı səfiri Anar Məhərrəmovun “Azərbaycan kifayət qədər resursa malikdir ki, əks-hücum əməliyyatlarını sona qədər davam etdirsin” sərlövhəli müsahibəsi dərc olunub.

AZƏRTAC xəbər verir ki, müsahibə zamanı “Quijote Globe” beyin mərkəzinin baş redaktoru Nunyo Rodriges səfir A.Məhərrəmova Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tarixi, Ermənistanın ölkəmizə qarşı təcavüzkar siyasəti, o cümlədən son həftə ərzində Ermənistanın təxribatyönümlü addımlarına Azərbaycanın münasibəti, habelə bu məsələyə beynəlxalq ictimaiyyətin mövqeyi barədə suallar ünvanlayıb.

Sualları cavablandıran səfir Anar Məhərrəmov ilk öncə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin tarixi barədə məlumat verərək, Qarabağ ərazisinin tarixi Azərbaycan torpağı olduğunu, ermənilərin bu əraziyə XIX əsrin birinci yarısından etibarən köçürüldüyünü qeyd edib.

Müsahibədə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin reallıqlarından bəhs edilərək, Ermənistan tərəfindən Azərbaycan torpaqlarının 20 faizinin işğal olunduğu, azərbaycanlı əhaliyə qarşı soyqırımı və etnik təmizləmə siyasətinin həyata keçirildiyi, 1 milyondan çox soydaşımızın qaçqın və məcburi köçkünə çevrildiyi diqqətə çatdırılıb.

Qeyd olunub ki, 2020-ci il iyulun 12-dən etibarən Ermənistan silahlı qüvvələri ağır artilleriyadan istifadə edərək, Ermənistan-Azərbaycan sərhədində yerləşən Azərbaycanın Tovuz rayonu istiqamətində Azərbaycan dövlət sərhədinin pozulmasına cəhd edərək, Azərbaycana qarşı təcavüz aktı törətmişdir. Hərbi təxribatı həyata keçirməkdə Ermənistanın niyyətlərindən biri də iki ölkənin sərhədində yeni münaqişə ocağı yaratmaqla, Avropa İttifaqının enerji təhlükəsizliyinin təmin edilməsində əhəmiyyətli rola malik olan Azərbaycan ərazisindən keçən enerji kəmərlərini, o cümlədən nəqliyyat və kommunikasiya xətlərini təhlükə altına salmağa cəhd etmək olmuşdur.

Cari il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin atəşkəs rejimini kobud şəkildə pozaraq, təmas xətti boyunca Azərbaycan Respublikasının mövqelərini, habelə təmas xəttinin yaxınlığında yerləşən kəndləri iriçaplı silahlar, minaatanlar və müxtəlif çaplı artilleriya qurğularından atəşə tutaraq, Azərbaycana qarşı növbəti təcavüzə əl atıb. Hərbi təxribat zamanı mülki əhali məqsədli şəkildə hədəf seçilmişdir. Oktyabrın 1-nə olan məlumata əsasən 19 dinc sakin həyatını itirib, 55 nəfər müxtəlif dərəcəli bədən xəsarətləri alaraq xəstəxanalara yerləşdirilib, bir sıra yaşayış və inzibati binalar güclü dağıntılara məruz qalıb.

Bildirilib ki, Azərbaycan Respublikasının Silahlı Qüvvələri Ermənistanın növbəti hərbi təcavüzünün qarşısını almaq və təmas xətti boyunca sıx şəkildə yaşayan mülki əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə özünümüdafiə hüququ çərçivəsində və beynəlxalq humanitar hüquqa tam riayət etməklə əks-hücum və cavab tədbirlərini həyata keçirirlər.

Azərbaycan Ordusunun öz xalqının və torpaqlarının müdafiəsini təmin etmək üçün kifayət qədər hazırlıqlı və güclü olduğu diqqətə çatdırılaraq, xalqımızın böyük ruh yüksəkliyi ilə Azərbaycan Silahlı Qüvvələrini dəstəklədiyi, soydaşlarımızın könüllü olaraq ordu sıralarına qatılmaq üçün müraciətlərinin anbaan artdığı qeyd olunub.

Xüsusi olaraq vurğulanıb ki, Ermənistan tərəfinin Azərbaycana qarşı növbəti təcavüzü beynəlxalq hüququn ümumtanınmış prinsip və normalarının, Ermənistan qoşunlarının Azərbaycanın işğal olunmuş ərazilərindən tam, dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən BMT Təhlükəsizlik Şurasının 1993-cü il tarixli 822, 853, 874 və 884 saylı qətnamələrinin, beynəlxalq humanitar hüququn, o cümlədən 1949-cu il Cenevrə konvensiyaları və onlara əlavə protokolların kobud şəkildə pozulması deməkdir.

Bildirilib ki, Ermənistan tərəfinin hərbi təxribatının əsas məqsədi regionda gərginlik yaratmaq, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi üzrə danışıqlar prosesini pozmaq, habelə Azərbaycan ərazilərinin işğalı ilə bağlı mövcud status-kvonu saxlamaqdır.

Səfir A.Məhərrəmov Ermənistanın bu təxribatının dünyanın bir sıra ölkələri, o cümlədən beynəlxalq və regional təşkilatlar tərəfindən kəskin şəkildə qınandığını diqqətə çatdıraraq, bu baxımdan İspaniya Krallığının hər zaman Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə dəstək ifadə etdiyini, Azərbaycanın haqlı mövqeyini dəstəklədiyini qeyd edib. Azərbaycan torpaqlarının Ermənistan silahlı qüvvələrinin işğalından tam şəkildə azad edilməsindən sonra regionda sülh və sabitliyin bərqərar olunacağı diqqətə çatdırılıb.

❖ ❖ ❖

Gürcüstanın aparıcı report.ge, pia.ge, 24news.ge, aktual.ge, kvirispalitra.ge, gaxa.ge və digər informasiya portalları Azərbaycan Prezidenti İlham Əliyevin dünyanın aparıcı KİV-ə müsahibələrindən geniş materiallar yayır.

AZƏRTAC xəbər verir ki, Azərbaycan, rus, ingilis və gürcü dillərində yayımlanan materiallarda Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin Dağlıq Qarabağ münaqişəsinin baş vermə səbəbləri, Azərbaycan Ordusunun əks-hücum nəticəsində qazandığı uğurlar, eləcə də münaqişənin sülh yolu ilə həllinin mümkün variantları ilə bağlı fikirləri yer alıb.

Gürcüstan KİV-də Azərbaycan Prezidentinin çıxışları sülhsevər liderin çağırışları kimi şərh edilir.